**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin**

**QƏRAR**

**№ 323**

**Bakı şəhəri, 12 oktyabr 2015-ci il**

**“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”nın və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1160 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2015-ci ilin Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın1.2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”nın və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin **2007-Cİ İL 15 FEVRAL 32 NÖMRƏLİ QƏRARINDA** (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 192, № 11, maddə 1184; 2008, № 6, maddə 587; 2010, № 12, maddə 1124; 2012, № 8, maddə 811; 2013, №7, maddə 882, № 12, maddə 1633; 2014, № 2, maddə 201, № 6, maddə 736, № 8, maddə 1004; 2015, № 1, maddə 60, № 5, maddə 675, № 6, maddə 795; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 avqust tarixli 283 nömrəli qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin.

2. 2-ci hissəyə “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri, “görə” sözündən sonra “mineral gübrələr üçün” sözləri, “manat” sözündən sonra “, herbisidlər üçün 10 manat” sözləri əlavə edilsin.
3. 4-cü, 6-cı və 6-1-ci hissələrə “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin.
4. 7-ci hissədə “və mineral gübrələrə” sözləri “, mineral gübrələrə və herbisidlərə” sözləri ilə əvəz edilsin.
5. Həmin qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları” üzrə:

5.1. adına “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin;

5.2. 1.1-ci bənddə “alınan mineral gübrələrin müvafiq qanunvericiliyə uyğun olaraq kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə” sözləri “mineral gübrələrin və herbisidlərin kənd təsərrüfatı məhsulları istehsalçılarına” sözləri ilə əvəz edilsin;

5.3. 1.2-ci bənd üzrə:

5.3.1. birinci cümləyə “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin və həmin cümlədə “və gübrə” sözləri “, gübrə və herbisidlər” sözləri ilə əvəz edilsin;

5.3.2. ikinci cümləyə “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri, “görə” sözündən sonra “mineral gübrələr üçün” sözləri, “manat” sözündən sonra “, herbisidlər üçün 10 manat” sözləri əlavə edilsin;

5.4. 1.3-1.5-ci bəndlərə, 2-ci hissənin adına, 2.1-ci bəndə hər iki halda, 2.2-2.5-ci bəndlərə, 2.6-ci bəndə hər iki halda, 2.9-cu və 2.10-cu, 3.1-ci və 3.2-ci bəndlərə ismin müvafiq hallarında “gübrələr” sözündən sonra ismin müvafiq hallarında “və herbisidlər” sözləri əlavə edilsin;

5.5. 2.7-ci bəndə “gübrənin” sözündən sonra “və herbisidin” sözləri əlavə edilsin;

5.6. həmin qaydalara 1 nömrəli əlavənin yuxarı sağ küncünə “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin və həmin əlavədə verilmiş “Ərizə” nümunəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

“Xahiş edirəm ____ hektar əkin sahəsinin becərilməsi üçün mənə güzəştli qiymətlərlə _____ ton (kq) azot, ______ ton (kq) kalium, _____ ton (kq) fosfor gübrəsinin və _____ton (kq) _________adlı herbisidin satılmasını təmin edəsiniz.” ;

5.7. həmin qaydalara 2 nömrəli əlavənin yuxarı sağ küncünə “gübrələrin” sözündən sonra “və herbisidlərin”sözləri əlavə edilsin;

5.8. həmin qaydalara 3 nömrəli əlavənin yuxarı sağ küncünə “gübrələrin” sözündən sonra “və herbisidlərin”sözləri, mətnində ismin müvafiq hallarında “gübrə” sözündən sonra ismin müvafiq hallarında “və herbisid” sözləri əlavə edilsin.

6. Həmin qərarla təsdiq edilmiş 4 nömrəli əlavənin adına “gübrələrin” sözündən sonra “və herbisidlərin” sözləri əlavə edilsin.

**Artur RASİ-ZADƏ,**

**Azərbaycan Respublikasının Baş naziri**